**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Ляман Ашраф гызы Вердиева**

# АНАЛИЗ СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИХ ВОПРОСОВ В ТВОРЧЕСТВЕ АБАСГУЛУ АГА БАКИХАНОВА

6114.01 - Социальная психология

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по психологии

**Баку – 2013**

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**LƏMAN ƏŞRƏF QIZI VERDIYEVA**

# ABASQULU AĞA BAKIXANOVUN YARADICILIĞINDA SOSİAL-PSİXOLOJİ MƏSƏLƏLƏRİN TƏHLİLİ

6114.01- Sosial psixologiya

Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2013**

İş Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Sosiologiya və sosial psixologiya şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Psixologiya üzrə elmlər doktoru
**İsfəndiyar Məmmədhüseyn oğlu Novruzlu**

**Rəsmi opponentlər:** Psixologiya üzrə elmlər doktoru, professor
**Rəna Həmid qızı Qədirova**

Psixologiya üzrə fəlsəfə doktoru
**Məhəbbət Abbas qızı Həsənova**

**Aparıcı müəssisə:** **Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrası**

Müdafiə "____" ___________" 2013 –cü il saat "______"-da Bakı Dövlət Universitetinin nəzdində fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya шurasının iclasında olacaqdır.

Ünvan: AZ1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23, II korpus, otaq 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "______" "_________" 2013-cü ildə göndərilib.

**FD. 02.014 Dissertasiya şurasının elmi katibi** **psixologiya üzrə fəlsəfə doktoru Rəşid Vəkil oğlu Cabbarov**

Sifariş N 867; tiraj 100
“MBM” nəşriyyatının mətbəəsində
çap olunmuşdur

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Gələcəyini düşünən hər bir xalq zaman keçdikcə təkmilləşdirdiyi həyat təcrübəsini, tarixi şəxsiyyətlərin miras qoyub getdiyi qiymətli fikirləri, onların baxışlarını araşdırmalı, təhlil etməli və gənclərin təlim-tərbiyəsinə istiqamətləndirməlidir. Bu baxımdan ədəbi-bədii irsimizin tədqiqi həmişə aktualdır.

Qeyd olunmalıdır ki, müasir sosial psixologiya elmi yeniliklərlə nə qədər zəngin olsa da, bədii irsimizdə, yazıçı və mütəfəkkirlərimizin əsərlərində əks olunan elə problemlər, fikirlər, ideyalar var ki, onlar sosial psixologiya elmi üçün bu gün də aktualdır və qismən tədqiq edilmişdir. Bu baxımdan əsərlərində özünəməxsus zəngin bədii və psixoloji ideyaları əks etdirən, fikirləri müasir dövr üçün mühüm əhəmiyyət kəsb edən mütəfəkkirlərdən biri də Abasqulu ağa Bakıxanovun irsinin tədqiqi olduqca vacibdir.

Abasqulu Ağa Bakıxanovun əsərlərində inikas olunmuş sosial-psixoloji ideyalar müasir dövrdə sosial-psixoloji münasibətlərdə və təhsil sistemində şəxsiyyətin formalaşması ilə səsləşən əsas problemlərdən biridir. Bu ideyaların və fikirlərin müasir dövr üçün tədqiqi sosial psixologiya üçün aktual olmaqla yanaşı, həm də onun əhatə dairəsini genişləndirir, elmi müddəaları yeni biliklərlə zənginləşdirir, milli mənlik şüurunun formalaşmasını möhkəmləndirir.

Nəzərə almaq lazımdır ki, gənc nəsil özündə nə qədər müsbət təkrarlanan cəhətlər cəmləşdirsə, bir o qədər müasir tələbatlara, motivlərə cavab verən yeni xüsusiyyətləri formalaşdırar, mütərəqqi xarakterli yeni fikirlərin, ideyaların, münasibətlərin daşıyıcısına çevrilər. Bu baxımdan A.A.Bakıxanovun zəngin ədəbi-bədii irsi, maarifçilik ideyaları bü gün də öz əhəmiyyətini itirməmişdir. Mütəfəkkirin sosial-psixoloji, etnik-psixoloji və pedaqoji ideyalarla zəngin olan irsi indiki dövrdə insanın, onun daxili ruh aləminin, mənəvi-psixoloji durumunun, etnik-psixoloji xüsusiyyətlərinin öyrənilməsində istinad edilə biləcək mənbələrdən biridir.

Təhlillər göstərir ki, A.A.Bakıxanovun əsərləri, psixoloji, fəlsəfi və etnik psixoloji yönümdə qismən tədqiq olunsa da, sosial-psixoloji baxımdan sistemli tədqiq edilməmiş, onun zəngin ədəbi-bədii irsi psixoloji tədqiqatın obyektinə bütünlüklə daxil edilməmişdir. Ümumiyyətlə, götürdükdə A.A.Bakıxanovun ədəbi-bədii irsinin sosial-psixoloji baxım-

dan tədqiqi müasir dövrdə bir neçə aspektdən xüsusi aktuallıq kəsb edir.

Əvvəla, A.Bakıxanovun əsərlərində öz əksini tapmış sosial-psixoloji ideyalar, şəxsiyyətin sosializasiyası və formalaşması ilə bağlı elə ideya və mülahizələr vardır ki, onlar yeni tarixi şəraitlə səsləşir və təlim-tərbiyə prosesində hərtərəfli istifadə edilə bilər.

İkincisi, A.Bakıxanovun əsərlərində öz əksini tapmış ideyalar və mülahizələr Azərbaycan xalqının etnik-psixoloji xüsusiyyətlərinin onun yaşadığı dövrdən müasir dövrə qədər dəyişilmə dinamikasını öyrənməyə, çatışmazlıqları dərk etməyə imkan verir.

Üçüncüsü, A.Bakıxanovun əsərlərində öz əksini tapmış mənəvi-psixoloji ideyalar, şəxsiyyət və onun təlim-tərbiyəsi məsələləri bu gün də olduqca aktualdır. Bu onunla bağlıdır ki, mənəvi-psixoloji dəyərlərin dəyişməsi, Avropaya inteqrasiya və dünya mədəniyyətinə daxil olma bir sıra müsbət cəhətlərlə yanaşı, özünəməxsus çatışmazlıqlar da ortaya çıxarmışdır. Qeyd olunan çatışmazlıqların yalnız mənəvi-əxlaqi dəyərlərin dərk olunması və onların üstünlüyünün qəbul edilməsi fonunda aradan qaldırılması mümkündür. Məhz bu nöqteyi-nəzərdən də A.Bakıxanovun irsi müstəsna əhəmiyyət kəsb edir. Bütün qeyd olunanları nəzərə alıb «Abasqulu ağa Bakıxanovun yaradıcılığında sosial-psixoloji məsələlərin təhlili» mövzusunun tədqiqat obyekti kimi seçməyi məqsədəuyğun hesab etmişik.

**Mövzunun işlənmə səviyyəsi**. Psixoloji araşdırmalar göstərir ki, A.Bakıxanovun elmi irsinin öyrənilməsi, nəşri və təbliği XX əsrdə geniş vüsət almışdır. Bu dövrdə mütəfəkkirin həyatı və dünyagörüşünün inkişaf mərhələləri, əsərlərinin geniş elmi şərhlərlə çapdan buraxılması ilə təkcə tarixçi alimlər deyil, həm də digər elmlərə aid olan mütəxəssislər məşğul olmuşlar. Azərbaycan filosoflarından 1950-60-cı illərdən başlayaraq Heydər Hüseynov, Ə.Əhmədov, F.Qasımzadə, İ.Rüstəmov və başqaları A.Bakıxanovun yaradıcılığında fəlsəfi ideyaları hərtərəfli tədqiqat obyektinə çevirmişlər.

Azərbaycan psixoloqlarından B.H.Əliyev, M.Məhərrəmov, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, Ə.T.Baxşəliyev, Q.E.Əzimov, İ.M.Novruzlu, N.T.Rzayeva, M.V.Vəliyev və b. ədəbi-bədii irsimizdə öz əksini tapmış psixoloji fikirləri təhlil etmiş, o cümlədən A.Bakıxanovun əsərlərində özünə yer almış ideya və baxışları psixoloji baxımdan mənalandırmışlar.

Tanınmış Azərbaycan filoloqları Ş.Qurbanov, Ə.Qəhrəmanov, R.Həsənova, M.Rəfili, M.Arif, M.C.Cəfərov, A.Babayev, M.Sadıxov,

R.Bədirbəyli və başqaları dahi sənətkarın yaradıcılığının filoloji təhlilini vermişdir.

Görkəmli pedaqoqlar Ə.Seyidov, Z.Göyüşov və digərləri mütəfəkkirin pedaqoji maarifçilik görüşlərini təhlil etmişlər.

Tarix elmində zəngin və mənalı fikirlərə malik olan akademik Ziya Bünyadov Abasqulu ağa Bakıxanovun diplomat və tarixçi alim olduğunu böyük rəğbət hissi ilə vurğulamışdır.

Rus alimlərindən E.Paxomov, L.Baqriy, V.S.Sisoyev və b. A.Bakıxanovun yaradıcılığının müxtəlif aspektlərini öyrənmişlər. Başqa alimlərə, yazıçı və diplomatlara nisbətən A.Bakıxanovun yaradıcılığında çox qiymətli, məzmunlu, psixoloji fikirlər olduqca çoxdur. Lakin A.Bakıxanovun yaradıcılığı indiyədək sosial-psixoloji cəhətdən tədqiqat obyekti olmamışdır və bu da mövzunun bir daha aktual olduğunu diqqətə çatdırır.

**Tədqiqatın obyektini** A.Bakıxanovun yaradıcılığında, onun ədəbi-bədii irsində əks etdirilmiş ayrı-ayrı sosial-psixoloji və etnik-psixoloji məsələlərin qoyuluşu və həmin məsələlərin müasir dövrlə əlaqə və münasibətlərinin məzmununun açılması təşkil edir.

**Tədqiqatın predmeti** A.Bakıxanovun əsərlərində öz əksini tapmış sosial-psixoloji məsələlərin tədqiqidir.

**Tədqiqatın məqsədi** A.Bakıxanovun yaradıcılığında sosial-psixoloji ideyaların gənc nəslin təlim-tərbiyəsi və şəxsiyyətin sosializasiyası baxımından araşdırılması və həmin ideyaların sosial-psixoloji istiqamətdə tətbiqinin yol və vasitələrinin tapılması təşkil edir.

**Tədqiqatın əsas fərziyyəsi.** Gənclərdə sosial-psixoloji keyfiyyətlərin təşəkkül və formalaşmasında, onların sosializasiyası prosesinin gedişində, eləcə də mənəvi-psixoloji keyfiyyətlərin tərbiyəsində bir sıra amillərlə yanaşı A.Bakıxanovun əsərlərində öz əksini tapmış obrazların və nəsihətlərin müstəsna əhəmiyyəti vardır.

Əsas fərziyyəyə uyğun olaraq iki köməkçi fərziyyə də irəli sürülmüşdür:

1. Gənc nəslin şəxsiyyət kimi formalaşmasında A.Bakıxanovun əsərlərindəki müsbət obrazlar önəmli rol oynayır.
2. Gənclərdə formalaşan təsəvvürlər cəmiyyətdə mövcud olan adət-ənənəyə, tarixi şəxsiyyətlərin həyat tərzinə söykənir, onların nəsihətlərinin təsirindən qaynaqlanır.

**Tədqiqatın vəzifələri**. Dissertasiya işində qarşıya qoyulmuş məqsədi

reallaşdırmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi vacib hesab edilmişdir:

1. Problemlə bağlı müvafiq fəlsəfi, psixoloji, filoloji və pedaqoji ədəbiyyatın təhlili əsasında məsələyə yanaşmanın nəzəri aspektlərinin müəyyən edilməsi;

2. Abasqulu ağa Bakıxanov yaradıcılığının müasir sosial və etnik-psixoloji baxımından araşdırılması;

3. Abasqulu ağa Bakıxanovun əsərlərindəki əsas ideyaları sosial-psixoloji yanaşma baxımından təhlil edib, əldə edilən nəticələrin, onların yararlı cəhətlərinin gənclərin və yeniyetmələrin tərbiyəsində istifadə edilməsi;

4. Gənclərdə mənəvi təşəkkülün əsas komponentlərini araşdıraraq, onları şərtləndirən ünsürlərin təsnifatının verilməsi;

5. A.Bakıxanovun «Nəsihət»lərində diqqətimizi cəlb edən fikirləri və ideyaları gənclərin şəxsiyyət kimi formalaşmasında rolunun müəyyən edilməsi.

**Tədqiqatın elmi yeniliyi**. Müasir dövrdə ilk dəfə olaraq Abasqulu ağa Bakıxanovun irsi sosial-psixoloji tədqiqat obyektinə çevrilmişdir.

Əvvəlki tədqiqat işlərindən fərqli olaraq bu işdə:

- Maarifçilik ideyalarının şəxsiyyətin sosiallaşması və mənəvi tərbiyənin əsas qayəsi kimi gənclərin təlim-tərbiyəsinə yönəldilməsi onlarda milli adət-ənənələrin və milli mənlik şüurunun formalaşmasına hərtərəfli təsir göstərməsi faktı müəyyən edilmiş;
- Abasqulu ağa Bakıxanovun irsində xalqımıza məxsus etnik-psixoloji xüsusiyyətlərin təzahürü və əsas məqamları, xalqın, xüsusən də gənclərin sosial, mədəni inkişafına əngəl törədən amillər sistemi ayırd edilmiş, bundan qurtulmağın yol və vasitələri göstərilmiş;
- Müasir dövrdə ədəbi-bədii irsin sosial-psixoloji təhlilinə əsaslanmaqla gənclərin mənəvi-psixoloji inkişafının əsas istiqamətləri, bədii nəsihətlərin, obrazların onların şəxsiyyətin formalaşmasında rolu diqqət mərkəzinə gətirilmiş, onun aktuallığı və gələcək perspektivləri müəyyən edilmişdir.

**Müdafiəyə təqdim olunan əsas müddəalar:**

- XIX əsrin birinci yarısında ədəbi-bədii irsimizdə, xüsusilə də A.Bakıxanovun irsində sosial-psixoloji və pedaqoji ideyaların geniş əks etdirilməsinin psixoloji səbəbləri ilə yanaşı, bir sıra sosial-psixoloji səbəbləri də olmuşdur. Xalqın maarifçiliyinin aşağı olması, gənclərin

təlim-tərbiyəsində zəruri olan metodların yalnız etnik adət və ənənələrə əsaslanması sosial sferada və gənclərin formalaşmasında müxtəlif çatışmazlıqlara gətirib çıxarmışdır. Belə bir fikirlərin meydana çıxması bilavasitə maarifçilik ideyalarının geniş təbliği, elm və mədəniyyətin ön plana çəkilməsi, gənclərdə müasir dünyagörüşün formalaşdırılması zərurətindən qaynaqlanır;

- A.Bakıxanovun irsində sosial-psixoloji problemlər yalnız ideya kimi qoyulmur, onların həlli yolları bilavasitə cəmiyyətin, xüsusilə də gənclərin maarifləndirilməsində, milli mənlik şüurunun dərk olunmasında, yeni mədəni dəyərlərin qavranılmasında özünü göstərir;
- A.Bakıxanovun irsində ailə tərbiyəsi prosesində etnopsixoloji amillərdən istifadənin sosial – psixoloji zərurət olması göstərilmiş, bu istiqamətdə tarixi keçmişimizin layiqli şəxsiyyətlərinin əsərlərinə və yaradıcılığına nəzər salınması xüsusi önəm daşıyır;
- A.Bakıxanov yaradıcılığında gənclərdə dini identikliyin formalaşmasının istiqamətləri ön plana çəkilmiş, bu yolla gənclərin bir şəxsiyyət kimi, öz xalqının, millətinin mənəvi dəyərlərini yaşatması ön plana çəkilmişdir.

**Tədqiqatın metodoloji əsasları və metodikası.** Tədqiqatın metodoloji əsasını müasir psixologiya və sosial psixologiya elmində mənəvi inkişafın mexanizmləri və onların təhlili təşkil edir. Burada sosial psixologiyada müvəffəqiyyətlə tətbiq olunan ümumiləşdirmə, müqayisəli təhlil, sosial-tarixi yanaşma metodlarına geniş istinad edilmişdir. Tədqiqatda əsasən Abasqulu ağa Bakıxanovun mənəvi irsinin öyrənilməsinin istiqamətləri,onun əsərlərindəki nəsihətlərin mahiyyəti və semantikası müasir elmi-psixoloji yanaşma baxımından araşdırılmış, psixoloji sorğu metodundan istifadə edilmişdir.

**Tədqiqatın elmi-nəzəri əhəmiyyəti**. Şəxsiyyətin sosiallaşması və mənəvi inkişaf mürəkkəb və çoxcəhətli proses olduğundan onun inkişaf dinamikasının və psixoloji statusunun tədqiqi ümumən sosial psixologiya elminin biliklərlə zənginləşdirilməsində mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı Abasqulu ağa Bakıxanov irsinin psixoloji təhlili psixologiya elmi ilə ədəbiyyatşünaslıq elmi arasında körpü yaradır və elmlərin inteqrasiyasına xidmət edir.

**Tədqiqatın praktik əhəmiyyəti**. Tədqiqatda əldə olunan nəticələrdən ali məktəb tələbələrinin və orta məktəb şagirdlərinin mənəvi-əxlaqi tərbiyəsində, onların şəxsiyyətinin müsbət istiqamətdə inkişaf etdirilmə-

sində istifadə oluna bilər. Burada əsas məsələ görkəmli alim və yazıçı Abasqulu ağa Bakıxanovun «Nəsihət»lərindən düzgün istifadə, onun kimi vətənini, xalqını sevməyi öyrətmək və təlqin etməkdən ibarətdir. A.Bakıxanovun zəngin ədəbi-bədii irsi, maarifçilik ideyaları, İslam dininə böyük hörməti, yadlar içində öz mənəviyyatını saxlaması gənc nəslin tərbiyəsində, tələbə gənclərin hərtərəfli inkişafında bir örnəkdir. Əldə olunmuş nəticələrdən sosial psixologiyanın və seçmə fənlərin tədrisində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası**. Tədqiqatın nəticələri Azərbaycan Müəllimlər İnstitutunun Gəncə filialının Psixologiya kafedrası, Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Sosiologiya və sosial psixologiya şöbəsinin seminarlarında, habelə bir neçə elmi məqalə və tezislərdə öz əksini tapmış və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsədi və vəzifələri, onun obyekti, predmeti, əsas fərziyyəsi, metodoloji və metodiki əsasları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti göstərilir, müdafiəyə təqdim olunan əsas müddəalar müəyyən olunur.

Dissertasiyanın **"A.Bakıxanov yaradıcılığının tədqiqinin başlıca istiqamətləri"** adlı birinci fəsli beş yarımfəsildən ibarətdir. **"A.Bakıxanovun irsinin tədqiqi istiqamətləri"**adlanan birinci yarımfəsildə Azərbaycan xalqının böyük mütəfəkkiri, maarifçi demokrat, Azərbaycan məfkurəsinin işıqlı simalarından biri Abasqulu ağa Bakıxanov haqqında ətraflı məlumat verilir,onun zəngin irsi ədəbi-bədii, psixoloji, pedaqoji və sosial-psixoloji baxımdan təhlil edilir. Qeyd olunur ki, A.Bakıxanov özünün "Qanuni-Qüdsi", "Əsrarül-mələkut", "Təhzibül-əxlaq", "Eynülmizan", "Gülüstani-İrəm" kimi əsərləri ilə böyük şöhrət qazanmışdır. "Təhzibül-əxlaq" müəllifin elmi və nəzəri məsələləri əhatə edən əsəridir. Şəxsiyyətin bütövlüyü, vicdan təmizliyi, doğruluq, ədalət, mərdlik, yoxsul və məzlumlara hamilik, insanlarla yaxşı rəftar, düşkün ehtiraslardan özünü saxlamaq, dünya malına tamah salmamaq, şöhrətpərəstlikdən çəkinmək, təvazökarlıq, zəhməti sevmək, elm və maarifin

bayrağını hər şeydən uca tutmaq, vətənə və xalqa məhəbbət və s. “Təhzibül-əxlaq” əsərinin irəli sürdüyü əsas əxlaqi-psixoloji məsələlərdir.

Bu yarımfəsildə göstərilir ki, A.A.Bakıxanov şəxsiyyətin tərbiyəsində mənfi keyfiyyət olan şöhrətpərəstliyi kəskin tənqid etmişdir. O, lovğa, özündən razı insanları tənqid edib deyirdi ki, özünün bilikli olduğunu göstərməyə çalışan şəxs özünün nadanlığını biruzə verir. Onun fikrincə, şöhrətpərəstlərin tərəqqi etməsi çətindir. Həmçinin bu yarımfəsildə A.Bakıxanovun əsərlərinin Ə.S.Bayramov, M.Məhərrəmov, B.H.Əliyev, C.Təhmasib, Ə.Əlizadə, N.T.Rzayeva, M.V.Vəliyev və b. tərəfindən psixoloji baxımdan mənalandırılması diqqət mərkəzinə gətirilir.

**I fəslin “A.Bakıxanovun mənəvi-psixoloji görüşləri”** adlanan ikinci yarımfəslini Abasqulu ağa Bakıxanovun əsərlərindəki mənəvi-psixoloji ideyalar təşkil edir. Əsərlərinin təhlilindən görünür ki, Abasqulu ağa Bakıxanovun ən çox sevdiyi keyfiyyət insanlarda vicdanın olmasıdır. Vicdan öz mahiyyətinə görə, güzgüyə bənzəyir. Hər bir insan özünün etdiyi yaxşı və pis hərəkətlərini vicdanın güzgüsündə görür, yaxşıları davam etdirir, pislərdən isə canını qurtarmağa çalışır. Vicdan öz daxili mexanizminə görə, əxlaqi hissdir. O, ayrıca fəaliyyət göstərmir, onun mövcudluğu üçün mütləq şərt intellektin, şüurun olmasıdır. Bununla yanaşı, vicdanlılıq həmişə xalqın adət-ənənələri ilə bağlıdır və onun ayrılmaz bir hissəsidir.

Özünün «Mənəvi tərbiyə» əsərində o, insan psixologiyasının bir sıra mühüm cəhətlərinə toxunmuşdur. Burada o belə bir fikri ön plana çəkir: «İnsanlarda iki cür xarakter mövcuddur: biri anadangəlmə, irsi, təbiətin verdiyi, digəri isə əldə edilmiş, qazanılmış xarakterdir. Birincisindən yaxa qurtarmaq, onu dəyişdirmək çətindir, ikincisi isə dəyişkəndir, bir formadan başqa bir formaya keçə bilər. «Vərdiş – insanın ikinci xarakteridir» fikri buna misal ola bilər. Burada A. Bakıxanov nəzəriyyə ilə təcrübənin («elmlə əməlin») qarşılıqlı əlaqə və münasibətini təyin etməyə çalışır,elmlə əməlin bir-birindən asılı olduğunu izah edərkən, elmə üstünlük verir.

Müasir dövrümüzdə insanı, onun daxili ruh aləmini öyrənən elmlər qarşısında duran başlıca vəzifə insan psixikasının dərk olunan və olunmayan cəhətlərini araşdırmaqla yanaşı, kompleks şəkildə tədqiqatların aparılmasıdır. Bu, olduqca vacib, eyni zamanda, mürəkkəb məsələdir. Problemin mürəkkəbliyi onunla bağlıdır ki, insanın öyrənilməsi məsələsi bütövlükdə psixologiya elminin çərçivəsindən kənara çıxaraq, digər

elmləri də əhatə etməyi, idrakın, təfəkkürün, hafizə və şüurun araşdırılmasına geniş yer verməyi ön plana çəkərək, ədəbiyyatın daxili imkanları ilə yanaşı, tarixi şəxsiyyətlərin fikir və mülahizələrinin də psixoloji baxımdan araşdırılmasını zəruri edir.

**I fəslin "A.Bakıxanovun etik-psixoloji görüşləri"** adlanan üçüncü yarımfəslində dahi mütəfəkkirin etik-psixoloji fikirləri təhlil olunmuşdur. Burada qeyd edilir ki, A. Bakıxanovun etik görüşləri sistemli halda onun «Təhzibi-əxlaq», «Kitabi-nəsihət» əsərlərində, qismən isə «Gülüstani-İrəm» əsərində şərh edilmişdir. A.Bakıxanova görə əxlaq məsələlərinin qoyuluşunda və həllində yalnız dini kitablar kifayət deyildir. Bundan əlavə dünyanın qabaqcıl filosoflarının və mütəfəkkirlərinin bu sahədə apardıqları tədqiqatları da dərindən öyrənmək lazımdır.

A.Bakıxanovun nöqteyi-nəzərincə dünya insandan asılı olmayaraq dəyişdiyindən insan təbiəti də dəyişir. Dünyadan əlahiddə bir şey olmayan, aləm cüzlərinin ən şərafətlisi olan insan» dünyada, cəmiyyətdə baş verən dəyişikliklərin təsirinə məruz qalmaya bilməz. A.Bakıxanova görə insanın təbiəti "daima dəyişməkdə və həvayi-nəfs təbəddülatdadır". Buna görə də insanlar heç bir halda təqliddən kənara çıxmağa qadir deyillər. O, insanı daimi və "ən qadir təqlidçi" adlandırır. Burada A.Bakıxanovun fikirlərinə münasibət bildirərək qeyd edilir ki, müxtəlif psixoloqların fikrincə insanın əxlaqi davranışı məhz bir sıra vasitələrlə yanaşı təqlidetmə yolu ilə də formalaşır. Bu fikirlər A.Bakıxanovun yaşadığı dövrdən 50-100 il sonra söylənilmişdir. Məhz A.Bakıxanovun əxlaq tərbiyəsinə belə ümdə və perspektivli yanaşması onun dahiliyini sübut edən amillərdəndir.

**I fəslin "A. Bakıxanovun dini və əxlaqi maarifçilik konsepsiyasının təhlili"** adlanan dördüncü yarımfəslində tədqiqatın əsas anlayışlarının məzmun və mahiyyəti sosial-psixoloji səviyyədə təhlil olunmuşdur. Burada qeyd edilir ki, xalqın, millətin mariflənməsini ön plana çəkən A.Bakıxanov yaradıcılığının əsas qayəsini elmlə bağlamış və Şərqdə dini maarifçiliyin əsasını qoymuşdur. Onun fikrinə görə, ailədə hər bir şəxsin öz işi olduğu kimi, onun yaratdıqlarının da öz borcu, işi vardır. Borcunu başa düşməsi üçün hər bir insan şəriətin, dinin nə olduğunu yaxşı bilməli, oxumağı, yazmağı bacarmalıdır: Adam şəriətlə öz zahiri gözəlliyini, batili, daxili gözəlliyini isə elmlə zənginləşdirməyi bacarmalı, ağıllı, keyfiyyətli məsləhətlər verməyi bacarmalıdır.

A.Bakıxanovun dini təfəkkür və məfkurəsi Allahın yaradıcı xüsusiy-

yətləri xaosdan özbaşınalıqdan deyil, sistemli, ardıcıl münasibətlərin yaradılmasından ibarət olduğunu vurğulayır. Dini–islami mənbələri diqqətlə izləyib anlamağa çalışdıqda bu fikrin kifayət qədər məntiqli, ağlabatan olduğu aydın görünür. Belə ki, İslam dini ilk andan əsas insanın hüquq və azadlıqlarını tanımış və bunları həm dünya, həm də axirət qanunları ilə təmin etməyə çalışmışdır.

**I fəslin "A.Bakıxanov yaradıcılığında mətbuat və maarifçilik ideyaları"** adlanan beşinci yarımfəsildə problemin araşdırılmasının əsas prinsipləri şərh edilir. Burada qeyd edilir ki, XIX əsr Azərbaycan ədəbi-mədəni tarixinin ən zəngin, rəngarəng, məhsuldar, eyni zamanda ən ziddiyyətli bir dövrüdür. Bu dövrdə milli mətbuatın, maarifçiliyin, professional ədəbi tənqidin, ictimai və fəlsəfi düşüncənin inkişafı daha çox nəzəri cəlb edir. Bu baxımdan milli mətbuat və maarifçilik sahəsində Abasqulu ağa Bakıxanovun xidmətləri danılmazdır.

A.Bakıxanovun maarifçilik ideyaları, elmi-ədəbi, publisistik xidmətləri tarixi əhəmiyyət kəsb edir. O, orta əsrlərdən yeni dövrə, feodalizmdən kapitalizmə, Asiyadan Avropaya, ənənədən-elmə keçidi hazırlayan ilk böyük şair, maarifçi və alimdir. Onun XIX əsrin I yarısında yaşayan rus və avropa alimləri, ədibləri ilə görüşdüyünü,onlarla şəxsən elmi və ədəbi mübadilələr apardığını dərindən tədqiq etdikcə, A.Bakıxanov gözlərimiz qaşısında daha da ucalır. Bəzi mənbələrə görə, A.Bakıxanov "Tiflisskiye vedomosti" qəzetinin fars dilində dərc olunan bölməsinin redaktoru olmuşdur.

A.Bakıxanov qəzetdə orijinal məqalələrlə və təcrümələrlə çıxış edirdi. O, dərc olunan tərcümələrin elmiliyinə xüsusi diqqət yetirirdi. D.L.Vateyşvili yazırdı: "A.Bakıxanov "Tiflisskiye vedomosti" qəzetində Şərq mövzusunda, Nəvainin tatar dilinin Cığatay ləhcəsində yazdığı şeirə nəzirə və s. kimi digər materialların tərcüməçisi idi".Qeyd edə bilərik ki, heç şübhəsiz Azərbaycan maarifçiliyində, xüsusilə fədakar maarifçi A.Bakıxanov irsində nəinki etik, habelə psixoloji ideyalar da əks olunmuşdur. Beləliklə, öz dövrünün görkəmli alimi, böyük maarifçisi, istedadlı ədibi kimi tanıdığımız Abasqulu ağa Bakıxanov misilsiz elmi düşüncələri, böyük maraq doğuran əsərləri, mətbuat və maarifçilik sahəsindəki yorulmaz fəaliyyəti ilə XIX əsrin əvvəllərində Azərbaycan ədəbi-mədəni irsi daha da zənginləşdirilmişdir.

Dissertasiyanın **II fəsli "Abbasqulu ağa Bakıxanov yaradıcılığında sosial-psixoloji ideyaların araşdırılması"** adlanır. Bu fəslin **"A.Bakı-**

**xanovun yaradıcılığında sosial-psixoloji ideyaların inikası"** adlanan birinci yarımfəslində problemin mahiyyətini və strukturunu müəyyənləşdirmək üçün ilk növbədə, tədqiqatda mərkəzi yer tutan anlayışların psixoloji məzmunu, onlar arasındakı əlaqə və münasibətlərin xarakteri aydınlaşdırılır. Burada qeyd edilir ki, yaradıcılıq qabiliyyəti elmi fəaliyyətin əsasını təşkil edərək, yazıçı və ədiblərin ustalıqlarının daha da genişlənməsinə və dərinləşməsinə xidmət edir, təkmilləşir, yeni əsərlərin yaranmasına əsas olur. Bədii yaradıcılığın mahiyyəti və sirləri alim və filosofları, ədəbiyyatşünas və psixoloqları həmişə düşündürmüşdür və bu məsələ heç vaxt axıradək həll edilməmişdir. Bədii yaradıcılıqdan söz açanlar böyük çətinliklərlə üzləşirlər: yaradıcılığı ya tam şüurlu və müəllif iradəsinə tabe olan proses, ya da bu prosesin şüursuzluq psixikasının məhsulu olduğunu hesab edirdilər.

Müasir dövrdə insanın münasibətlərini, onun daxili ruh aləmini öyrənən elmlər qarşısında duran başlıca vəzifə insan psixologiyasının dərk olunan və dərk olunmayan cəhətlərini araşdırmaqla yanaşı bu istiqamətdə kompleks tədqiqatların aparılmasıdır. Bu onunla bağlıdır ki, insanın öyrənilməsi problemi psixologiyanın nüfuz dairəsindən çıxmış bədii yaradıcılıqla inteqrasiyaya meyl etmiş, ziyalıların, şair və yazıçıların bədii yaradıcılığında araşdırmalara ehtiyac duymuşdur. Bütün bunlar ədəbiyyatın daxili imkanları ilə yanaşı, tarixi şəxsiyyətlərin fikir və mülahizələrini də psixoloji təhlilə, araşdırmaya cəlb etməyi vacib etmişdir. Bu baxımdan A.A.Bakıxanovun yaradıcılığında sosial-psixoloji məsələlərin təhlili ön plana çəkilməlidir. Dahi mütəfəkkirin elmi irsində, yaradıcılığında qiymətli psixoloji fikirlər olduqca çoxdur.

A.Bakıxanov şəxsiyyət kimi formalaşma və sosiallaşmada diqqət mərkəzində saxladığı əsas insani keyfiyyətləri - ağıllılığı, əməksevərliliyi, məqsədyönlülüyü, vicdanlılığı, hümanistliyi, dözümlülüyü- bütün yaradıcılığı boyu vurğulanmışdır. O qeyd edir ki, ağlı qidalandıran bilik insanda inama, əqidəyə çevriləndə daha böyük təsir qüvvəsinə və əhəmiyyətə malik olur. Bu işdə isə hisslər və iradə mühüm rol oynayır.

A.Bakıxanova görə uşağın sosializasiyasında sosial mühitin, o cümlədən tərbiyənin və ailənin rolu böyükdür. O, göstərir ki, şəxsiyyətin pozitiv sosial keyfiyyətləri mənimsəməsində, eləcə də yaxşı sifətlərin təşəkkülü və formalaşmasında ağlın, hisslərin və iradənin rolu böyükdür və bu onların sıx iştirakı ilə başa gəlir və insanın davranışına tərbiyələndirici məzmun verir. Başqa cür ola da bilməz. Çünki şəxsiyyət hissə-

hissə deyil, tam halda formalaşır. Odur ki, tərbiyə işində şəxsiyyətin yalnız bir komponentinə təsir etməyi əsas götürüb, başqalarına biganəlik göstərmək olmaz. Ona nail olmaq lazımdır ki, gənclərə verilən tərbiyəvi biliklər onların inamına, şəxsi əqidələrinə, daxili təlabatlarına çevrilsin, onların hisslərinə hakim kəsilsin, hərəkət və davranışlarını tənzim etsin. Bunun üçün yeniyetmələrin həm şüuruna, həm də hisslərinə və iradəsinə təsir göstərilməlidir. A.Bakıxanov bütün yaradıcılığı boyu öz əsərlərində bu qanunauyğunluğu gözləmişdir.

**II fəslin "A.Bakıxanovun irsində etnik – psixoloji xüsusiyyətlərin əks etdirilməsi"** adlı ikinci yarımfəslində Abasqulu Ağa Bakıxanov irsində bu günlə səsləşən və heç zaman aktuallığını itirməyən etno-psixoloji məsələlərin zənginliyi və əhatəliliyi öz dolğunluğu ilə diqqəti cəlb edir. Onun etnopsixoloji ideyalarına "Təhzibi-əxlaq", "Nəsihət-namə", "Kəşfül-Qərayib", "Eynəl-mizan", "Müşkatül-ənvar", "Hikmə-tin fəzilət", "Gülüstani-İrəm" və bir sıra başqa əsərlərində də rast gəlmək mümkündür.

Məlumdur ki, milli psixologiyada etnik ümumilik ön plana keçir. Burada əsasən iki cəhət diqqəti xüsusi olaraq cəlb edir: millətin psixi siması, yəni milli və etnik xarakter, adət- ənənə, psixoloji yönüm, sərvət meyli, davranış, rəftar tərzi və s. Bir də millətin və ya etnosun emo-sional aləmi, yəni milli və ya etnik hisslər, onların məzmunu, istiqaməti, davamlıq dərəcəsi, stenik və astenikliyi və s. Bu iki cəhət həm də etnik stereotip və yönümlərin məzmununu, formalaşmasını və eləcə də təza-hür xüsusiyyətlərini şərtləndirir. Başlıca cəhət odur ki, etnik stereotip və yönümlər nəsildən-nəsilə verilərək həmin etnos üzvlərinin əxlaqi adət və baxışlarında, inam və əqidələrində, davranış və rəftar tərzində, başqa-larına, eləcə də özünə münasibətin xarakterində təzahür edir. Özünün "Etnik psixologiya" kitabında professor Ə.S.Bayramov yazır: "Etnik stereotipin məzmununa bu və ya digər etnosun nümayəndələri (üzvləri) ilə rəftar qaydaları, yaxud onlarla necə rəftar etmək, davranmaq, onlara necə münasibət bəsləmək qaydaları barədə mülahizə və fikirlər də daxil ola bilir. A.Bakıxanovun əsərlərində həmin cəhətlər bu və ya digər şəkildə öz əksini tapmışdır. A.Bakıxanovun əsərlərində həm avtostereo-tiplərə, həm də heterostereotiplərə aid maraqlı faktlara rast gəlmək olur". Təsadüfi deyildir ki, A.Bakıxanovun əsərlərində avtostereotiplərdə öz etnosunun etnik məziyyətlərinin əks etdirilməsi ilə yanaşı, həm də onun qüsur və çatışmazlıqları da məharətlə əks etdirilmişdir. "Avamın nöqsan

axtarması", yaxud "Təbriz əhlinə xitab" bu cəhətdən çox xarakterikdir. Burada müəllif bir sıra etnopsixoloji məziyyətləri diqqət mərkəzinə gətirir, onun neqativ və pozitiv cəhətlərini göstərir. O, dövrün maarifçiləri kimi A.Bakıxanov da bilavasitə xürafatı, təhsildə geri qalmanı, bir-birinə qənim kəsilməni etnik məziyyət kimi daha çox qabardır.

A.Bakıxanov ilk növbədə yalnız öz xalqına deyil, həm də başqa xalqlara mənsub olan etnik stereotiplərin, adət-ənənələrin tarixən təşəkkülünə, dəyişkənliyinə, nisbilik və özünəməxsusluğuna diqqəti cəlb edirdi. Yəni öz dövründə xalqların inkişaf tərəqqisinin əsas meyllərini düzgün dərk edən və qiymətləndirən A.Bakıxanov tarixin gedişatı ilə ayaqlaşmaq naminə öz xalqında vaxtı keçmiş, inkişafa mane olan etnik stereotip və yönümlərin, adət-ənənələrin aradan qaldırılmasına xüsusi fikir vermiş, ifrat mühafizəkarlığın, cəhalət və ətalətin, yeniliyin qəbuluna maneçilik törədən digər psixoloji xüsusiyyətlərin aradan qaldırılmasına çalışmışdır. Bunun üçün o, ilk növbədə elində, obasında, bir sözlə Vətənində maarifin, elmin, təhsilin inkişaf etdirilməsinə, yəni bütün xalqın maariflənməsinə xüsusi əhəmiyyət vermişdir. Elə buna görə də A.Bakıxanovun əsərlərində etnopsixoloji ideyalar təlim-tərbiyə planında, didaktik aspektdə öz əksini tapmışdır. Etnik stereotip və yönümlərdəki qüsurları aradan qaldırmaq üçün A.Bakıxanov özünün maarifçilik ideyalarını, əxlaq nəzəriyyəsini geniş yaymağa cəhd etmişdir.

II fəslin üçüncü yarımfəsli **"A.Bakıxanovun irsində şəxsiyyətin formalaşması ilə bağlı ideya və mülahizələr"** ("Təzibül-əxlaq" əsərində sosial-psixoloji ideyaların təhlili) adlanır. Abasqulu ağa Bakıxanovun əsas istəyi, amalı gəncləri düzgün istiqamətdə tərbiyə etmək, xalqı qaranlıqdan, yuxudan oyatmaq, onların psixikasında, şüurunda dönüş yaratmaq, xalqı, camaatı qəflət yuxusundan oyadaraq işıqlı gələcəyə səsləmək olmuşdur. Onun yazdıqları ya həqiqi eşqdən, sevgidən, ya da ki, nəsihətlərdən, xoşmənalı sözlərdən ibarət olmuşdur.

Şəxsiyyət və onun formalaşması məsələləri də A.Bakıxanovun əsərlərinin əsas məzmununu, ana xəttini təşkil edir. Belə ki, "Təhzibül-əxlaq" əsərinin bütün fəsilləri insanların daxili ruh aləminin bəzi cəhətlərinə istiqamətlənmişdi. Əsər müqəddimə, on iki fəsil və xatimədən ibarətdir. Müqəddimə psixoloji fikirləri əhatə edib, şəxsiyyətin əvvəldən axıracan inkişafında mühüm rol oynamağa yönəldilmişdi. Burada qeyd edilir ki, ağlı, şüuru, dünyagörüşünü təşəkkül və inkişaf etdirən bilikdir. Məhz biliyə yiyələnmək əsasında adam elmi dünyagörüşünə malik olur

və nəticə etibarilə həyatda fəal mövqe seçməyi, düzgün yol tutmağı, ədəb-ərkan daxilində davranmağı, yaxşını-pisdən seçməyi bacarır.

Ağlı qidalandıran bilik insanda inama, əqidəyə çevriləndə daha böyük təsir qüvvəsinə və əhəmiyyətə malik olur. Bu işdə isə hisslər və iradə mühüm rol oynayır. Məsələn, vicdan hissi və möhkəm iradə adamı rəzil hərəkətlərə yol verməkdən çəkindirir; yaxud insanpərvərlik hissi adamı başqaları ilə münasibətdə nəzakətli və qayğıkeş olmağa təhrik edir, vətənpərvərlik hissi insanın vətən və xalq naminə ləyaqətli işlər görməsində stimul kimi çıxış edir.

Nəcib hisslərə və mətin iradəyə malik olan şəxs pis hərəkətləri, bayağı keyfiyyətləri öz mənliyinə sığışdıra bilməz. Belə adam öz hərəkətinin xeyirxahlığını və düzgünlüyünü, davranışının paklığını dərk etməsindən məmnun olur, sevinc hissi keçirir, pis hərəkətinə görə isə əzab-əziyyət çəkir. O, bir daha pis hərəkətə yol verməmək və başqaları önündə xəcalət çəkməmək üçün özünü səfərbərliyə alır. Burada yenə ağıl, hiss və iradə onun köməyinə çatır. Beləliklə, yaxşı sifətlərin təşəkkülü və formalaşması ağlın, hisslərin və iradənin sıx iştirakı ilə başa gəlir və insanın davranışı-na tərbiyələndirici məzmun verir.

Bu fəsildə verilmiş informasiyaları ümumiləşdirərək aşağıdakı **nəticəyə** gələ bilərik:

- A.Bakıxanovun əsərlərində müxtəlif elmi ideyalarla yanaşı sosial-psixoloji ideyalar da üstünlük təşkil edir. Bu ideyalar nəzəri xarakter daşımayıb cəmiyyətdə mövcud olan stereotip və yönümlərdən qaynaqlanır.
- A.Bakıxanovun əsərlərində öz əksini tapmış sosial-psixoloji ideyalar əsasən cəmiyyətin başlıca təsisatı olan ailənin daxili strukturu, ailə – nigah məsələləri və ailəyə hazırlığın psixoloji mexanizmlərinin açılmasına yönəlmişdir.
- A.Bakıxanov əsərlərində diqqəti cəmiyyətdə baş verən haqsızlıqlara yönəldir, öz şerləri ilə haqsızlığı qamçılayır və onunla mübarizə aparmağın yol və vasitələrini göstərir.
- Şəxsiyyətlərarası münasibətlərdə neqativ halların yaranmasını mütəfəkkir, şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətləri, ən əsası isə münasibətlərdə qeyri-səmimiliyin olmasında görürdü.
- A.Bakıxanovun əsərlərində şəxsiyyətin formalaşmasının irsi və sosial amillərinin mütənasibliyini göstərməklə yaratdığı ideyalarla məhşur psixoloqların fikirlərinə yaxınlaşır və bir növ psixoloq kimi çıxış edir.
- A.Bakıxanovun əsərlərində sosial keyfiyyətlərin formalaşması

mexanizmi göstərilmiş və bunun bilavasitə cəmiyyətdə böyük-kiçiklik münasibətlərinin harmoniyasında olduğunu yəqinləşdirmişdir.

- A.Bakıxanovun əsərlərində bir sıra pozitiv şəxsiyyət keyfiyyətlərinin formalaşdırılmasını fərdin şəxsiyyət kimi sosializasiyasında əsas amil kimi qiymətləndirir və müəllim, tərbiyəçi və valideynlərə tövsiyə edilən üsullardan istifadə etməyi məsləhət görür.

Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı **məqalə və tezislərində** öz əksini tapmışdır:

1. Abasqulu Ağa Bakıxanov yaradıcılığında mənəvi dəyərlərin sosial psixoloji təhlili // Humanitar Elmlərin Öyrənilməsinin Aktual Problemləri, Bakı, 2005 № 5, s.144-147
2. Dini maarifçiliyin A.Bakıxanovun yaradıcılığında rolu və yeri // Dil və ədəbiyyat jurnalı, Bakı 2006, № 3(51), s. 107-108
3. Abasqulu Ağa Bakıxanovun pedaqoji və psixoloji görüşləri // Humanitar Elmlərin Öyrənilməsinin Aktual Problemləri, Bakı, 2006, № 3 s.175-179
4. A. Bakıxanov yaradıcılığında mətbuat və maarifçilik // AMEA-Gəncə Reqional Elmi Mərkəzinin Xəbərlər Məcmuəsi, Gəncə, 2007, №29, s.147-150
5. Этико-психологические особенности произведения “Насихетнаме” “Книга наставлений” А.Бакыханова // Социум: Проблемы, анализ, интерпретации, Москва, 2007, Выпуск VI, с. 160-164
6. Выражение проблем этнической психологии в Азербайджанском классическом наследии / Актуальные вопросы современной психологии и педагогики. V Международная научная заочная конференция. Липецк: 2010, с.35-37
7. Abbasqulu Ağa Bakıxanovun yaradıcılığında sosial-psixoloji məsələlərin təhlili // Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, Bakı, 2011, № 2 s.74-77
8. A.Bakıxanovun etnik-psixoloji görüşləri // Psixologiya jurnalı, Bakı, 2011, № 4, s.50-58
9. Azərbaycan maarifçiliyində psixoloji idealların əks etdirilməsi / Qloballaşma şəraitində təhsil və elmin inkişaf problemləri. II Beynəlxalq konfrans. Gəncə: 2011, s.303-304
10. Отражение психологических идей в просвещении Азербайджана // Достояние нации, Алматы, №1, 2012, с.104-109
11. Azərbaycan maarifçilik fəlsəfəsinin təmsilçisi A.A.Bakıxanovun

yaradıcılığında təsəvvüf ideyalarının psixoloji inikası // Psixologiya jurnalı, Bakı, 2012, № 3, s.130-140

**Ляман Ашраф гызы Вердиева**

## Анализ социально-психологических вопросов в творчестве Абасгулу Ага Бакиханова

## РЕЗЮМЕ

Динамическое развитие современного общества показывает, что ценные мысли и взгляды исторических личностей должны быть проанализированы и направлены на учебно-воспитательную работу молодежи. В художественных произведениях отражены такие проблемы, идеи, мысли, которые и сегодня не потеряли своей актуальности, созвучны современности. Обращение к Абасгулу Ага Бакиханову, творчество которого богато своеобразием художественных и психологических идей, с этой точки зрения является актуальным. Во введении обосновывается актуальность темы, указываются цели и задачи, объект, предмет, методологические основы, научная новизна исследования, определяются основные положения, выдвигаемые на защиту.

В первой главе диссертации – «Главные направления исследования творчества А.Бакиханова» – объектом исследования является творческий путь великого азербайджанского мыслителя, просветителя-демократа, а также научные работы, посвященные его творчеству. Здесь анализируются и психологически осмысляются публицистические и просветительские идеи А.Бакиханова, в том числе его религиозные и этические концепции.

Во второй главе диссертации под названием «Социально-психологические идеи в творчестве Абасгулу Ага Бакиханова» анализируются его социальные и психологические взгляды, этно-психологические особенности творчества, а также такие произведения автора, как «Тахзибуль-ахлаг», «Насихетнаме», «Кяшфуль-гараиб», «Эйн аль-мизан», «Мюшкатуль-анвар», «Хикматин-фазилят», «Гюлюстани-ирем» и др. В данной главе также переосмысляются с психологической точки зрения идеи и взгляды А.Бакиханова, связанные с формированием личности, указываются основные пожелания и мотивации автора. Здесь отмечается, что формирование некоторых позитивных личностных качеств в произведениях А.Бакиханова расценивается как ведущий фактор в процессе социализации индивида, и в связи с этим автор советует учителям, воспитателям и родителям применять рекомендуемые методы. В заключении можно прийти к такому выводу, что в творчестве А.Бакиханова наряду с различными научными идеями широкое место занимают и его социально-психологические взгляды. Эти идеи, не носящие теоретического характера, связаны с тенденциями и стереотипами, существующими в обществе.

В заключительной части диссертации обобщаются основные результаты исследования, указывается практическая значимость анализа научно-литературного наследства А.Бакиханова.

**Verdiyeva Leman Ashraf**

## The Analysis of Socially-Psychological Questions in Abasgulu Agha Bakikhanov's creativity

### SUMMARY

Dynamic development of a modern society shows, that valuable thoughts and sights of historic figures should be analyzed and directed for teaching and educational work of youth. In works of art such problems, ideas, thoughts which and have not lost today the urgency are reflected, are conformable the present. The reference to Abasgulu Agha Bakikhanov which creativity is rich with an originality of art and psychological ideas, from this point of view is actually. In introduction the theme urgency is proved, the purposes and problems are specified, the object, a subject, methodological bases, scientific novelty of research, are defined the substantive provisions which are put forward on protection.

In the first chapter of the dissertation - «Mainstreams of A.Bakikhanov's creativity research» - object of research is the career of the great Azerbaijan thinker, the educator-democrat, and also the scientific works devoted to its creativity. There are analyzed and A.Bakikhanov's publicistic and educational ideas, including its religious and ethical concepts are psychologically comprehended.

In the second chapter of the dissertation under the name «Socially-psychological ideas in Abasgulu Agha Bakikhanov's creativity» are analyzed its social and psychological sights, ethno-psychological features of creativity, and also such products of the author as "Tahzibul-akhlag", «Nasixat-name», "Kashful-garaib", «Eyn al-mizan», "Mushkatul-anvar", "Hikmatin-fazilat", "Gulustani-irem", etc. In the given chapter also переосмысляются from the psychological point of view of idea and A.Bakikhanov's connected with formation of the person the sights, are specified the basic wishes and motivations of the author. There is noticed, that formation of some positive personal qualities in A.Bakikhanov's products is regarded as the leading factor in the course of socialization of the individual and in this connection the author advises to teachers, to tutors and parents to apply recommended methods. In the conclusion it is possible to come to such conclusion, that in A.Bakikhanov's creativity along with various scientific ideas the wide place is occupied also with its socially-psychological sights. These ideas which are not carrying theoretical character are connected with tendencies and the stereotypes existing in a society.In a final part of the dissertation are generalized the basic results of research, the practical importance of the analysis of the scientifically-literary inheritance of A.Bakikhanov is underlined.